# El-obaya naxış insan

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk dünyasının ölməz söz sultanı "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında" 18 fevral 2021-ci ildə Sərəncam imzalamışdır. Sərəncamda "2021-ci ildə Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, qüdrətli söz ustadı Aşıq Ələsgərin anadan olmasının 200 illiyi münasibətilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.**

"Aşıq Ələsgər çoxəsrlik keçmişə malik aşıq sənəti ənənələrinə ən yüksək bədii-estetik meyarlarla yeni məzmun qazandırmış, xalq ruhuyla həmahəng əsərləri ilə Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş etmişdir. Sənətkarın doğma təbiətə məhəbbət və vətənpərvərlik hisslərini vəhdətdə aşılayan, ana dilimizin saflığını, məna potensialını və hüdudsuz ifadə imkanlarını özündə cəmləşdirən dərin koloritli yaradıcılığı Azərbaycan ədəbiyyatının parlaq səhifələrindəndir. Aşıq Ələsgər çox sayda yetirmələrindən ibarət bir məktəb formalaşdırmış və gələcəyin məşhur el şairlərinə qüvvətli təsir göstərmişdir. Azərbaycan aşıq sənətinin ümumbəşəri dəyərlər sırasında qorunan dünya qeyri-maddi mədəni irs nümunələri siyahısına salınması həm də Aşıq Ələsgər sənətinə ehtiramın təzahürüdür.

Aşıq Ələsgərin zəngin poetik irsinin geniş tədqiqi, nəşri və təbliğinin mühüm mərhələsi mədəni-mənəvi dəyərlərimizin bütün daşıyıcılarına həmişə qədirbilənliklə yanaşan ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Sənətkarın yubileyləri məhz ulu öndərin təşəbbüsü ilə dövlət səviyyəsində qeyd edilmişdir. Böyük söz ustadının respublikamızda və onun hüdudlarından kənarda 150 illik yubiley mərasimləri keçirilərkən əlamətdar hadisə baş vermiş, azərbaycanlıların əzəli yurdlarından olan qədim Göyçə mahalında, doğulduğu kənddə Aşıq Ələsgərin qəbirüstü abidəsi ucaldılmışdı. Həmin əzəmətli büst soydaşlarımız öz dədə-baba torpaqlarından didərgin salındıqdan sonra erməni vandalları tərəfindən dağıdılsa da milli-mədəni varlığımızın tərkib hissəsinə çevrilmiş Aşıq Ələsgər irsi silinməz tarixi yaddaş rəmzi kimi yaşamaqdadır..."

Bununla da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev səs-sorağı hələ miladdan 4 min il əvvəl Hürrilərlə qoşa çəkilən, miladdan sonra Oğuz türklərinin sənəd məbədgahı sayılan qədim oğuz-türk yurdu ulu Göyçə mahalını indiki nəslin yadına salır, onların yaddaşında həkk edir və gənc nəsli bu tarixi dərindən öyrənib, unutmamağa çağırır. Dədə Qorqud qopuzuna, Qaraca Çoban qətiyyətinə güc verən ərənlər, Əmir Teymurlara, Şah Xətailərə, Şah Abbaslara, Nadir şahlara meydan verən, Koroğlulara qalalar yapan, onların şəninə nağıllar, dastanlar, əfsanələr yaradan, müdriklər, mərdlər, mərdanələr məskəni yaşıl xalatlı, ağsaçlı, "qüdrətdən səngərli, qalalı" ulu Göyçə!

Göyçə mahalı! Qərbi Azərbaycanın ərazisində, Göyçə gölü ətrafında olan tarixi mahal. Göyçə mahalı Qərbi Azərbaycanda 1988-ci ilə qədər azərbaycanlıların kompakt yaşadığı ərazilərdən biri, 1747-1828-ci illərdə İrəvan xanlığının mahalı olmuşdur.

Mahal Göyçə gölünün sahilləri boyu geniş bir ərazini əhatə edir. Bu ərazi Rusiyaya müharibə ilə birləşdirilənə qədər İrəvan xanlığının, sonralar isə İrəvan quberniyasının tərkibində olub. Sovet hakimiyyəti illərində Ermənistan SSR rayonlaşdırılarkən Göyçə mahalı süni surətdə beş inzibati rayon arasında bölünmüşdü. Çəmbərək rayonu, Basarkeçər rayonu, Aşağı Qaranlıq rayonu, Kəvər rayonu və Yelenovka rayonu. Qaraqoyunlu dərəsi də Çəmbərək rayonunun ərazisinə aid idi.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqda Göyçə mahalı tarixi Azərbaycan torpağı kimi onun tərkibində olub. 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv. km. olmuş, 1920-ci ildən ADR-i işğal edən yeni rus bolşevik imperiyası Azərbaycanın ərazisi olan Zəngəzur, Göyçə, Şərur, Dərələyəz mahallarını və Dilican ərazisini qanunsuz şəkildə Ermənistana vermişdir.

Bölgə Azərbaycan ədəbiyyat və mədəniyyət tarixinə Aşıq Alı, Aşıq Ələsgər, şair Məmmədhüseyn, Aşıq Əsəd, Aşıq Qurban kimi məşhur ustad saz və söz sənətkarlarını bəxş etmişdir.

Aşıq Ələsgər 1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində kəndin hörmətli şəxslərindən sayılan, əsas məşğuliyyəti dülgər olan Alməmməd kişinin ailəsində anadan olmuşdur.

Aşıq Ələsgər xüsusi təhsil ala bilməmiş, onun güclü yaddaşı el sənətkarlarını, el sənətini, xalq dastanlarını dinləməklə məşhurlaşmasına səbəb olmuşdur. Azərbaycan xalq şeirinin ən böyük nümayəndələrindən biri olan Aşıq Ələsgər Azərbaycan ədəbiyyatında böyük iz buraxmışdır.

Ələsgər gözəl bir sənətkar kimi İrəvana, Naxçıvana, Qazaxa, Qarabağa, Cavanşir ellərinə, Gəncəyə, Kəlbəcərə məclislərə çağırılmış, hər yerdə özünün hərtərəfli qabiliyyəti, ağlı, kamalı, məntiqli söhbətləri ilə məclisdəkiləri heyran etmişdir. Türkiyədə, İranda və Dağıstanda da ustad bir sənətkar kimi tanınmışdır.

Aşıq Ələsgər 1926-cı il mart ayının 7-də doğulduğu kənddə vəfat etmiş, Ağkilsə qəbiristanlığında dəfn olunmuşdur. Aşığın ölümündən sonra Azərbaycan folklorşünasları onun əsərlərini toplayıb yazıya almış və nəşr etdirmişlər. Azərbaycan Elmlər Akademiyası tərəfindən isə əsərlərinin ikicildlik elmi nəşri hazırlanmış və çap edilmişdir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Aşıq Ələsgərin 1972-ci ildə 150 illik yubileyi Azərbaycanın hər yerində, o cümlədən Moskvada, Ermənistanın Göyçə mahalının Basarkeçər rayonunda, həm də aşığın doğulduğu Ağkilsə kəndində böyük təntənə ilə qeyd edilmişdir.

Ağkilsə kəndində keçirilən yubiley tədbiri çox təmtəraqlı dövlət tədbiri olaraq yaddaşlara həkk olunmuş, unudulmaz hadisə kimi qiymətləndirilmişdir. Ağkilsə kəndində keçirilən tədbirə Basarkeçər Rayon İcraiyyə Komitəsinin sədri Zərbalı Qurbanov rəhbərlik edirdi. Yubiley tədbirinin fəallarından olan 42 yaşlı Cil kəndinin kolxoz sədri Abbas Mazanov Bakıdan gələn şairləri, yazıçıları, elm, incəsənət xadimlərini xatırlayır, onları necə qarşıladıqlarını, tədbirin yüksək səviyyədə keçirilməsindən həvəslə ürək dolusu danışır.

Abbas müəllim Aşıq Ələsgərin tərcümeyi-halını, yaradıcılığını, şeirlərini əzbər bilir, tez-tez xəyala dalıb, zümzümə edir. Göyçənin uzun qış gecələrində kənd ağsaqqalları, qohumlar, qonşular onun ocağının başına toplanar, yemək süfrəsi açılar, Abbas əmi sazı döşünə alar, hamı onun Aşıq Ələsgərdən yorulmadan həvəslə oxuduğu aşıq mahnılarını, sazla ifa etdiyi şeirlərini həvəslə dinləyər, "Əsli və Kərəm", "Koroğlu dastanı", "Tufarqanlı Abbasın dastanı", "Aslan şahın dastanı", "Yetim Hüseynin dastanı" və s. dastanları gecə keçənə kimi Abbas müəllimin dilindən və sazından eşidib mənən zənginləşərdilər.

Abbas müəllimin kitablarında ana vətən, qədim Oğuz yurdu Göyçə ilə bağlı şeirləri çoxluq təşkil edir. Bu şeirlərdə vətən və torpaq sevgisi, el-obaya bağlılıq, doğmalıq, Ana məhəbbəti geniş şəkildə öz əksini tapır. Lakin Abbas müəllim erməni xislətinə bələd olduğundan onun ürəyində həmişə narahatlıq hissi vardı. Abbas müəllimin ürəyinə dammışdı ki, bu el, bu mahal Göyçəsiz və azərbaycanlılarsız qala bilər. Hələ gənc yaşlarında 1966 -cı ildə yazdığı "Göyçə" şeirində deyirdi:

*Sənsən elim-günüm, evim-eşiyim,*
*Çağlayan qoynunda çəkdin keşiyim.*
*Sən anamsan, Göyçə gölü beşiyim,*
*Nəğməli, dastanlı, laylalı Göyçə.*

*Çox olur mehmanın, heç gəlməz sana,*
*Hüsni-gözəlliyin sığmır dastana,*
*Nə küskün baxırsan Azərbaycana.*
*Gözləri həsrətli, naləli Göyçə...*

Abbas müəllim Vətən həsrəti ilə hələ 1971-ci ildə yazdığı şeirində deyir:

*Vətən, sənin vurğununam.*
*İnsan Vətənsiz olmasın.*
*Elim, günüm, şirin dilim,*
*Bir an da sənsiz olmasın...*

Dünya ədəbiyyatının bir sıra nadir əsərləri ilə eyni səviyyədə dayanan məşhur Cənubi Azərbaycanlı şair Məhəmmədhüseyn Şəhriyarın 1954-cü ildə Azərbaycan dilində yazdığı "Heydərbaba salam" poeması 28 bəndlik nəzirəsində Vətən həsrəti ilə yanan, doğma elini xatırlayan Abbas müəllim yazır:

*...Göyçə kimi intizarda elim var,*
*Dağlarında çiçəyim var, gülüm var,*
*Mənim də bir doğma kəndim, Cilim var,*
*Dağları var dağlarıntək ucadır,*
*Tarixi var tarixindən qocadır. ...*

Abbas müəllim nümunəvi ailə başçısıdır. Akademik Teymur Bünyadovun dediyi kimi, "O ailənin başının tacı, Dilbər xanım isə dərdi, əlacıdır". Ömür -gün yoldaşı Dilbər xanımla üç qız, beş oğul böyüdüb, təhsil vermiş, xalqımız üçün yararlı, təəssübkeş, mübariz, nümunəvi insanlar yetişdirmişlər. Böyük oğlu İlham Mazanov Bakı Dövlət Universitetinin Beynəlxalq jurnalistika kafedrasının dosentidir. Uzun illərdir söz azadlığı, informasiya hüququ və informasiya təhlükəsizliyi istiqamətində elmi-tədqiqat işi aparır. Jurnalistikanın aktual problemləri ilə bağlı 300-ə qədər elmi-nəzəri məqalənin, 13 kitabın müəllifidir. Böyük qızı Süreyya xanım uzun illərdir ki, həkim kimi insanların sağlamlığı keşiyində durur. İki oğlu — İlqar və Qoşqar isə Qarabağ müharibəsi veteranlarıdır. İlqar həm də Əfqanıstan veteranıdır. İman, Vüqar, Gülbəs və Minayə də öz sahələri üzrə sayılıb-seçilən mütəxəssislərdir. Abbas müəllim 19 nəvənin, 26 nəticənin babasıdır.

Abbas Mazanov 1975-1983-cü illərdə Krasnoselo Rayon İcraiyyə Komitəsinin sədri işləmiş, 1988-ci ilin sonuna kimi, azərbaycanlılar Ermənistandan etnik təmizlənənədək Göyçə mahalının Cil kəndində sovxoz direktoru vəzifəsində çalışmışdı.



Abbas müəllim çox qonaqpərvər insandır. Xüsusilə alimlərə, şair və yazıçılara, aşıqlara qulluq etməyi sevir, daxili zəngin potensiali imkan verdiyi üçün onlarla söhbətdən çəkinmir. Qonaqlar onun söhbətlərindən doymur, onu diqqətlə dinləyir, tez ayrılanda heyifsilənirlər. Onun evində bir gün qonaq olmayanda ömür-gün yoldaşı Dilbər xanımla özlərini çox narahat hiss edirlər. Eşidəndə ki, Bakıdan İrəvana alimlər, görkəmli tanınmış sənət adamları gəlib, hökmən onları Göyçə mahalına dəvət edər, Göyçənin qədim Azərbaycan torpağı olduğunu, onlara tarixi abidələri, toponik adları ilə sübut edərmiş. Elm, sənət adamlarından Firudin Köçərli, Tofiq Köçərli, Teymur Bünyadov, Nurəddin Rzayev, Yaşar Qarayev, İzzət Rüstəmov, Qoşqar Əhmədli, Həbib Babayev, Salman Qarayev, Kamal Abdulla, Sabir Əsədov, İsrafil Məmmədov, Hüseyn Arif, Məmməd Araz, Səmədər Rzayev, Hidayət Orucov, yazıçı Həsən Mehdiyev, rəssam Mürsəl Nəcəfov, dövrünün tanınmış insanları Həbib Həsənov, Yunis Rzayev, Əli Həsənov, Qəşəm Aslanov, İbrahim Qurbanov, Nəriman Yusifov, Əli Süleymanov, Firidun Bağırov, general Teymur Bünyadov, admiral Kuznetsov və onlarla başqaları Abbas müəllimin sevimli qonaqları olub, ocağında duz-çörək kəsiblər.

Əzəli torpaqlarımız olan Ermənistanda azərbaycanlıların maddi-mənəvi irsləri son 30 ildə silinib, amma Abbas müəllim kimi müdriklərin gənclər arasında apardığı söhbətlər, yazdığı əsərlər, şeirlər nəticəsində tarixin yaddaşından bunu silmək qeyri-mümkündür. Abbas müəllim doğma dağlarına olan sevgisini, məhəbbətini hələ gənc yaşlarından özünə Vəfadağlı təxəllüsünü qəbul etməyi ilə bildirmiş, keçən əsrin qırxıncı illərindən bu günə qədər yazdığı şeirlərin əksəriyyətində öz əksini tapmışdır.

Abbas Vəfadağlı "Göyçə kimi intizarda elim var", "Gözləri həsrətli, naləli Göyçə", "Ulu Göyçəm", "Xatirələrim" kitablarının, dövri mətbuatda çap olunmuş onlarca məqalənin müəllifidir.

Abbas müəllim deyir ki, ermənilərlə işləmək asan deyildi. Nə qədər istəsən də millətçi erməni xəyanəti davam edirdi. Qarabağ məsələsi iclaslar səviyyəsinə çıxarılırdı. Bu həyasızlığa, xəyanətə dözməyən Abbas müəllim kəskinliklə cavab verir, qətiyyətlə mübarizə aparır, yeri gəldikcə, onları susmağa məcbur edirdi. Bəzi təcrübəli adamlar ona ehtiyatlı olmağı məsləhət görürdülər. Amma bağışlamaq, bir çox hadisələri həzm etmək mümkün olmurdu. Abbas müəllimin o vaxtlar verdiyi məsləhət "Döz, bağrı daş olan könlüm" indi də onu tanıyanların dilinin əzbəridir.

Abbas müəllim ömrünün müdrik dövrünü yaşayır. Qırx dörd günlük Vətən müharibəsində qələbə əzmi onu daha da ruhlandırmış, cavanlaşdırmışdır. Prezidentimizlə fəxr edir. Bütün söhbətlərində tez-tez deyir ki, Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyev Şah İsmayıldan sonra yeganə Sərkərdədir ki, işğal olunmuş dədə-baba torpaqlarımızı geri qaytarır, Azərbaycan dövlətinin əzəli torpaqlarını bərpa edir. Abbas müəllim Qalib Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə güvənərək ömrünün müdrik dövrünün qalan hissəsini əzəli torpaqlarımız olan Göyçə gölünün ətrafında keçirəcəyinə inanır.

Abbas müəllim indi də şeir yazır, mütaliəni daima davam etdirir. O, 28 fevral 2003-cü ildən nəşr edilən, təsisçisi və baş redaktoru Sərtib İslamoğlu olan "Vedibasar" qəzetinin yeni nömrələrinin çıxmasını intizarla gözləyir, nəşr olunmuş cildlərini maraqla səhifələyib, el-obasını, xatırladığı həmyerlilərini yadına salır.

Abbas Mazanovun ömür yolu keçilməz sıx meşəni xatırladır, nə qədər vurnuxsan da, səni əhatə edən sonsuz cəngəllikdən çıxmaq mümkün deyildir. Abbas Mazanovun həyatı gənclərimiz üçün örnəkdir.

**İsmayıl ƏLİYEV,**
**Xəlil İSMAYILOV,**
**Bakı Dövlət Universitetinin professorları.**